**Belarusiya Milli Əqli Mülkiyyət Mərkəzi**

**2024-2025-ci tədris ili üzrə gənclər arasında əqli mülkiyyət sahəsində**

**ƏN YAXŞI İŞ MÜSABİQƏSİ**

Müsabiqə əqli mülkiyyət sahəsində elmin təşviqi məqsədilə keçirilir, təqdim edilən müsabiqə işlərinin mövzusu isə əqli mülkiyyətin mühafizəsi, qorunması və idarə olunması üzrə aktual məsələləri əhatə edir.

Müsabiqə ənənəvi olaraq aşağıdakı nominasiyalar üzrə keçirilir:

- **Əqli Mülkiyyət sahəsində ən yaxşı magistr dissertasiyası**
- **Əqli Mülkiyyət sahəsində ən yaxşı diplom işi**
- **Əqli Mülkiyyət sahəsində ən yaxşı kurs işi**
- **Əqli Mülkiyyət sahəsində ən yaxşı məqalə**
- **Əqli Mülkiyyət sahəsində ən yaxşı esse**

2024-2025-ci tədris ilində sözü gedən müsabiqənin yeniliyi **Əqli Mülkiyyət sahəsində ixtisaslaşan mütəxəssisin ən yaxşı işi** nominasiyasının da əlavə olunmasıdır.

**Müsabiqədə təhsil formasından asılı olmayaraq (əyani, qiyabi) ali təhsil müəssisələrinin birinci və ikinci pillələri üzrə təhsil alan tələbələr, cari və ya əvvəlki ilin məzunları, elmi işçilər, həmçinin hüquqşünaslar, iqtisadçılar, patent xidmətlərinin əməkdaşları və s. iştirak edə bilər. Müsabiqə iştirakçılarınının yaş həddi 35-ə qədərdir.**

Müsabiqə qaliblərinin mükafatlandırılması “Müasir dünyada əqli mülkiyyət: zamanın çağırışları və inkişaf perspektivləri” V Beynəlxalq elmi-praktiki konfransı çərçivəsində həyata keçiriləcəkdir.

**Müsabiqə üçün tələb olunan sənədlər:**

**“Əqli mülkiyyət sahəsində ən yaxşı magistr işi”, “Əqli mülkiyyət sahəsində ən yaxşı diplom işi”, “Əqli mülkiyyət sahəsində ən yaxşı kurs işi” nominasiyaları ilə bağlı:**

- ✓ müsabiqədə iştirak üçün ərizə;
- ✓ magistr, diplom və ya kurs işinin surəti;
- ✓ elmi rəhbərin rəyinin surəti;
- ✓ resenziyanın surəti (kurs işləri istisna olmaqla);
- ✓ magistratura, diplom və ya kurs işinin nəticələrinin aprobasiyasını təsdiq edən materiallar və ya onların surətləri (varsa);
- ✓ Antiplagiat sistemində işin mətnin yoxlanılmasına dair **Tam Hesabat**;

**“Əqli mülkiyyət sahəsində ən yaxşı məqalə”/“Əqli mülkiyyət sahəsində ixtisaslaşan mütəxəssisin ən yaxşı işi” nominasiyası ilə bağlı:**

- ✓ müsabiqədə iştirak üçün ərizə;
- ✓ müsabiqədə iştirak etmək üçün tələblərə uyğun tərtib olunmuş məqalə;
- ✓ Antiplagiat sistemində işin mətnin yoxlanılmasına dair **Tam Hesabat**;

**“Əqli mülkiyyət sahəsində ən yaxşı esse”/“Əqli mülkiyyət sahəsində ixtisaslaşan mütəxəssisin ən yaxşı işi” nominasiyası ilə bağlı:**

- ✓ müsabiqədə iştirak üçün ərizə;
- ✓ müsabiqədə iştirak üçün tələblərə uyğun tərtib olunmuş esse;
- ✓ Antiplagiat sistemində işin mətnin yoxlanılmasına dair **Tam Hesabat;**

Müsabiqəyə işlər **Belarus və/və ya Rus** dillərində qəbul edilir.

Orijinallıq dərəcəsi 50%-dən az olan müsabiqə işləri müsabiqədə iştiraka buraxılmayacaq.

Ərizələr m.agayeva@patent.gov.az ünvanına təqdim olunur.

Faylın adında aşağıdakılar olmalıdır: iştirakçının soyadı, adı və atasının adı (varsa), nominasiyanın adı.

Sənədlər toplusu **.zip və ya .rar** formatda olmaqla bir ərizə və bir işi əhatə edir.

Müsabiqə işinin mətni **(.doc və ya .docx)** və qrafik formatı **(.jpg, .jpeg, .tiff, .bpm, .pdf)** qeyd olunan uzantılardan birində olmalıdır;

Müsabiqədə iştirak üçün ərizə; magistratura, diplom və ya kurs işi üçün elmi rəhbərin rəyinin surəti; magistr və ya diplom işinə rəyin surəti; aprobasiyanı təsdiq edən materialların surətləri (əgər varsa) – qrafik format **(.jpg, .jpeg, .tiff, .bpm, .pdf)**.

Tələblər ödənilmədikdə təqdim edilmiş ərizələrə **Müsabiqə Komissiyası** tərəfindən baxılmayacaq.

Müsabiqəyə işi təqdim etmiş iştirakçı ərizədə göstərilən məlumatların düzgünlüyünə, təqdim edilmiş müsabiqə işlərinin tərtibatının keyfiyyətinə və düzgünlüyünə görə məsuliyyət daşıyır.

**Müraciətlərin qəbulu üçün son tarix:** 20 sentyabr 2025-ci il

**Əlaqələndirici şəxs:** *Əqli Mülkiyyət Agentliyinin əməkdaşı, Mərziyyə Ağayeva, (tel.:* 960 (daxili nömrə 1119), e-ünvan: m.agayeva@patent.gov.az *)*

**Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi**